

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 246 (21.147)

*25 dekabr 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"in inşası başa çatan ofis binası və "Bakı Ağ Şəhər" layihəsi çərçivəsində görülən digər işlərlə tanış olublar.

Müstəqilliyin ilk illərində bütün sahələr üzrə gələcək inkişafın təməlini qoyan xalqımızın ümummilli lideri Heydər Əliyev "Qara şəhər" kimi tanınan bu ərazinin paytaxtın ən gözəl guşələrindən birinə çevrilməsini prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdi. 2011-ci il dekabrın 24-də "Bakı Ağ Şəhər"in təməli qoyuldu. Ötən 3 il ərzində layihə çərçivəsində xeyli iş görüldü.

Dövlətimizin başçısına layihə çərçivəsində həyata keçirilən işlər barədə ətraflı məlumat verildi.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ofisdə iş adamları üçün yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyev Ağ Şəhərin sahil boyunca yerləşən hissəsindəki tikililəri və Ağ Şəhər bulvarını da seyr etdi.

Prezident İlham Əliyevə inşası davam edən və tikintisi nəzərdə tutulan layihələr barədə də xəritə və eskizlər əsasında məlumat verildi.

Prezident İlham Əliyev layihə ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

* * *

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Binəqədi rayonunun ərazisində inşa edilən Heydər məscidində aparılan son tamamlama işlərinin gedişi ilə tanış olublar.

## Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası 2014-cü il dekabr ayının 27-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2015-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2015-ci il büdcəsinin təsdiq edilməsi
4. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı.

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2014-cü il*

## Naxçıvanda sosial qayğıya ehtiyacı olan vətəndaşlara minik avtomobilləri təqdim olunmuşdur





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sürətli sosial-iqtisadi inkişaf mərhələsinə yüksəlmişdir. Ölkə həyatının bütün sahələrində əldə olunan inkişaf və tərəqqi əhalinin rifahının yaxşılaşmasına və sosial problemlərinin həllinə stimul vermişdir. İnsana qayğını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirən ölkə Prezidenti tərəfindən bu sahədə də kompleks islahatlar həyata keçirilir. Son 10 ildə müharibə veteranlarının, sosial qayğıya ehtiyacı olan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onların minik avtomobilləri ilə təmin olunması da bu istiqamətdə görülən işlərin tərkib hissəsidir.

Dekabrın 24-də Naxçıvan şəhərində Azərbaycan Vətən müharibəsi iştirakçılarına, 1941-1945-ci illər müharibəsi veteranlarına və müharibə əlilinə bərabər tutulan şəxslərə 29 ədəd "NAZ-Lifan-320" markalı minik avtomobili təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə iştirak etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək demişdir ki, ölkəmizdə məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə inteqrasiyası, onların tibbi və sosial reabilitasiyasının təşkili üçün məqsədyönlü tədbirlər həyata keçirilir. 2014-cü ildə bu istiqamətdə bir sıra işlər görülmüş, 189 nəfərin Əlillərin Bərpa Mərkəzində, sağlamlıq imkanları məhdud 277 uşağın Uşaq Bərpa Mərkəzində müalicəsi təşkil edilmiş, 6 nəfər Yunanıstan Respublikasına, 6 uşaq Latviya Respublikasına, 15 uşaq isə Gürcüstanın Acarıstan Muxtar Respublikasına müalicəyə göndərilmişdir. Bununla yanaşı, müvafiq dövr ərzində 133 nəfər müxtəlif sanatoriya və pansionatlara göndərişlərlə təmin edilmiş, 181 nəfərə protez-ortopedik xidmət göstərilmiş, 245 nəfərə isə texniki bərpa vasitələri verilmişdir. Bu dövrdə məhdud fiziki imkanlıların məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, bu kateqoriyadan olan 60 nəfər minik avtomobili, 2 nəfər isə fərdi yaşayış evi ilə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni avtomobillərlə təmin olunanları təbrik edərək demişdir: "Ölkəmizdə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bütün sahələrdə inkişafa nail olunmuşdur. Yaradılan şərait ölkə vətəndaşlarının hərtərəfli qayğı ilə əhatə olunmasına, eləcə də Vətən qarşısında borclarını layiqincə yerinə yetirən insanlara lazımi dövlət qayğısının göstərilməsinə imkan verir. Bu gün muxtar respublikada 16 nəfər Böyük Vətən müharibəsi veteranının, 9 Azərbaycan Vətən müharibəsi iştirakçısının və bunlara bərabər tutulan 4 şəxsin avtomobillərlə təmin olunması da ölkəmizdə insan amilinə verilən qiymətin və bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısının daha bir ifadəsidir".

Ali Məclisin Sədri demişdir: "Bu gün avtomobillərlə təmin olunanlar həm Böyük Vətən müharibəsində, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı müharibədə iştirak edərək sağlamlıqlarını itirmiş, Vətən qarşısında öz borclarını layiqincə yerinə yetirmiş insanlardır. Ona görə də dövlətimiz tərəfindən bu kateqoriyadan olan vətəndaşlara hərtərəfli qayğı göstərilir, onların rahat hərəkətinin təmin olunması, sağlamlıqlarının qorunması, mənzil şəraitlərinin yaxşılaşdırılması, eləcə də təqaüdlərinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bütün bunlar da Azərbaycanda dövlət-vətəndaş münasibətlərinin və ölkəmizin iqtisadi gücünün göstəricisidir".

Ali Məclisin Sədri avtomobillərlə təmin olunanları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və 1 yanvar Yeni il bayramı münasibətilə təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim etmişdir.

Avtomobillərlə təmin olunanlardan Kəmaləddin Səfərli, Ələsgər Vəlibəyov, Yusif Əlverdiyev və Aslan Dadaşov minnətdarlıq edərək demişlər ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan daha xoş günlərə qovuşur. Ölkəmizdə insan amilinə yüksək qiymət verilir, vətəndaşların sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır. Sağlamlıq imkanları məhdud insanlar da dövlətimizin qayğısı əhatəsindədir. Yaradılan şərait hər bir vətəndaşda qurub-yaratmaq hissini gücləndirir, onlar ölkə Prezidentinin ətrafında daha sıx birləşirlər. Avtomobillərin təqdimatının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ad günündə keçirilməsinin onlar üçün ikiqat bayram olduğunu bildirən tədbir iştirakçıları dövlət başçısına minnətdarlıqlarını və təbriklərini çatdırmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Şəhərləşən kəndlərimiz

# Nehrəm

(Əvvəli qəzetin 27 noyabr 2014-cü il tarixli sayında)

Müasir Nehrəm haqqında danışarkən, ilk olaraq, kəndin geniş əhali ehtiyatlarını və buradakı insan resurslarını qeyd etmək lazımdır. Şübhəsiz, əhali sayının çox olması müxtəlif ixtisaslara sahib olan kadrların mövcudluğuna da imkan verir. Burada bir və ya ikiuşaqlı ailələrə çox az rast gəlmək olar. Nehrəmdə beş, yeddi və daha çox uşağı olan ailələr çoxluq təşkil edir. Əvvəlki yazıda da qeyd etmişdik ki, Nehrəmin 3230 təsərrüfatında 15 min nəfər qeydiyyatdadır. Bu, yuxarıda qeyd olunan faktı bir daha təsdiq edir – hər ailə orta hesabla 5 nəfərdən ibarətdir. İnsanların həyat səviyyəsinin yüksəlməsi, hər il çoxlu sayda yeni ailələrin qurulması və onların sosial vəziyyətinin yaxşılaşdırılması kənddə əhali sayının artmasına təsir edən əsas amillərdəndir.

Məşğuliyyət istər kənddə, istərsə də şəhərdə əhali məskunlaşması üçün mühüm şərtdir. Bu baxımdan Nehrəm bir çox yaşayış yerlərinə nümunə ola biləcək bir kənddir. Nehrəmlilər çox əməksevərdirlər. Hazırkı dövrdə dövlətimizin iş üçün yaratdığı əlverişli imkanlar – torpaqların kəndliyə verilməsi, daxili bazarın qorunması, kredit təminatı, texnika, gübrə və digər güzəştlər torpaq mülkiyyəçilərini öz işinə daha da həvəsləndirmişdir.

Kənd təsərrüfatının inkişafı səviyyəsinə görə Nehrəm hazırda təkcə Babək rayonunun deyil, muxtar respublikanın seçilən kəndlərindəndir. Belə ki, kənddə xırda və iribuynuzlu mal-qara bəsləyən 12 iri fermer təsərrüfatı vardır. Ümumiyyətlə isə kənddə 30 min başdan artıq xırdabuynuzlu, 2200 başdan artıq isə iribuynuzlu heyvan saxlanılır. Kənddə fəaliyyət göstərən baytarlıq və süni mayalandırma məntəqəsi heyvandarlığın inkişafında böyük əhəmiyyət daşıyır. Nehrəmlilər kəndin təbiəti üçün xas olmayan arıçılıq sahəsində də öz bacarıqlarını sınayırlar. Artıq Nehrəmdə 500-ə yaxın arı ailəsinin saxlanıldığını bələdiyyə sədri ilə söhbətdən öyrəndik. İndi kəndin torpaq mülkiyyətçilərinin istifadəsində 50-dən artıq maşın-mexanizm vardır ki, onların bir çoxu lizinq yolu ilə əldə edilmişdir. Bunların köməyi ilə kənddə hər il 1500 hektardan çox taxıl, 500 hektar sahədə bostan-tərəvəz bitkiləri əkilir.

Nehrəmdə təbii su qaynaqları azdır. Suvarma məqsədilə Araz çayından Yovşanlı, Sallıqlar və Qarazəmi massivlərindəki, Heydər Əliyev Su Anbarından Pirçuvardakı, Naxçıvançay və Əlincəçaydan gələn su xətlərindən isə kənddaxili torpaqların və ətraf ərazilərin suvarılması üçün istifadə olunur. Ərazisindəki təbii ehtiyatlara gəldikdə Nehrəmdə geniş molibden və soda ehtiyatları, tikinti daşı, qum vardır. Böyük miqdarda təbii ehtiyatı olan gəc xammalı tikintidə geniş istifadə olunur. Hazırda kəndin ərazisində hər birində 10-15 nəfərin işlə təmin olunduğu beş gəc istehsalı sahəsi fəaliyyət göstərir. Ümumiyyətlə isə kənddə üç lavaş, bir mebel istehsalı sahəsi, 5 dülgər sexi, 2 min kvadratmetrlik istixana, bir broyler müəssisəsi, qarışıq yem istehsalı ilə məşğul olan istehsal müəssisələri vardır. Bu müəssisələrdə 200-dən çox kənd sakini daimi işlə təmin olunmuşdur.



Nehrəmin simasının müasirləşdirilməsində ona şəhər görkəmi verən quruculuq tədbirlərinin mühüm rolu vardır. Kənddə hələ 2008-ci ildə istifadəyə verilmiş kənd mərkəzi, xəstəxana, ticarət mərkəzi, 2 məişət evi, şadlıq sarayı, musiqi məktəbi, xatirə muzeyi, kənddaxili işıqlandırma, yeni asfalt örtüyü və rahat piyada yolları buradakı müasirliyin görüntüsü kimi göz oxşayır. Bütün bunlar kəndin sosial həyatını zənginləşdirən, insanların adi işlərdən ötrü nə rayon mərkəzinə, nə də Naxçıvan şəhərinə gəlmədən öz işlərini həll etməsinə imkan verən mühüm tədbirlərdəndir. Müasir xidmət səviyyəsi istənilən yaşayış məntəqəsində insanların həyatını dəyişdirir. Belə ki, Nehrəm kəndində 24 saat işləyən əczaxana insanların sağlamlığının xidmətindədir. Bu təkcə bir sıra kəndlərimizə deyil, muxtar respublikamızdakı bəzi rayon mərkəzlərinə də nümunə ola bilər. Ümumiyyətlə isə Nehrəm özünün səhiyyə sahəsindəki gözəl ənənələri ilə seçilir: bu kəndin gəncləri ali məktəblərə ixtisas seçimində tibb sahəsinə xüsusi üstünlük verməklə tanınmış həkimlərin yolunu davam etdirirlər. Nehrəmin cərrah, pediatr, kardioloq, stomatoloq, uroloq ixtisaslarını dərindən bilən bacarıqlı həkimləri muxtar respublikamızın hər yerində yaxşı tanınır. Nehrəm kənd sahə xəstəxanasında 11-i həkim olmaqla, 54 nəfər tibb işçisi insanların sağlamlığının keşiyindədir. Burada ayrıca Doğum şöbəsi, rentgen və ultrasəs müayinə kabinələri, aptek fəaliyyət göstərir.

Kənddə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş 10 nəfər şəhidin xatirəsinə abidə ucaldılmış, onun ətrafı gülzarlığa çevrilmişdir.

Kənddəki sosial xidmət şəbəkəsini yeməkxana, ət satışı bazarı, geniş örtülü bazar kompleksi, 3 avtotəmir sexi, bütün məişət xidmətlərinin mərkəzləşdirilmiş halda təklif olunduğu məişət xidməti obyekti tamamlayır. Burada quraşdırılmış bankomat və mağazalardakı POS-terminallar əhaliyə elektron ödəniş xidmətləri göstərir. Kəndin mərkəzindəki sənaye, ərzaq, təsərrüfat malları, avtoehtiyat hissələri mağazaları ilə yanaşı, kənar məhəllələrdə 5 ticarət obyekti də əhalinin xidmətindədir.

Nehrəmdə üç orta məktəb, bir musiqi məktəbi fəaliyyət göstərir. Hər bir məktəbdə də yüzlərlə şagird təhsil alır. Bu kənd öz təhsil ənənələri ilə seçilir. Cəlil Məmmədquluzadənin maariflənmə ideyalarının davamçıları olan müəllimlərə, onların əməyinə hamı hörmət bəsləyir. Nehrəm məktəblərində müəllimin tapşırıqları şagirdlər üçün ən ciddi, ən təxirəsalınmaz bir vəzifə sayılır. Kəndin təhsil sahəsindəki nəticələrinə nəzər salsaq, görərik ki, təkcə 2014-cü ilin yekunlarına görə, buradakı üç tam orta məktəbi bitirən 156 nəfər məzunun 76 faizi təhsilini davam etdirmək üçün sənəd vermiş, onlardan 55 nəfəri ali məktəblərə, 15 nəfəri orta ixtisas məktəblərinə qəbul olunmuş, 1 nəfər 600-700, 9 nəfər isə 500-600 bal arası nəticə göstərmişdir. Ötən il 900 yerlik Nehrəm kənd 1 nömrəli tam orta məktəb binasının yenidən qurulması, hazırda isə 2 nömrəli məktəbdə aparılan əsaslı təmir işləri hər bir Nehrəm gəncinin Vətəninə layiq gənclər kimi hərtərəfli formalaşmasına xidmət edən dövlət qayğısı kimi minnətdarlıqla qarşılanır.

Naxçıvan Muxtar Respublikasının böyük kənd yaşayış məntəqəsi Nehrəm öz tarixinin intibah dövrünü yaşayır. Bütün göstəricilərinə görə sürətlə şəhərə doğru yaxınlaşan bu kənddə insanların sosial-mədəni həyatını kökündən dəyişdirən quruculuq və müasirləşmə durmadan davam etdirilir. Müasir villatipli gözəl kənd evlərinin sayının artdığı bir dövrdə Nehrəmdə həyata keçirilən yeni içməli su və kanalizasiya xətlərinin çəkilişi də bu kəndin şəhər infrastrukturu standartlarına qovuşmasına xidmət edir.

Və kəndə son böyük ərmağan – ölkə Prezidentinin 2014-cü il 27 avqust tarixli Sərəncamı ilə Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması bu bölgənin ən böyük kəndinin sakinlərinin böyük sevincinə səbəb olmuşdur. Çünki Nehrəmə müntəzəm işləyən marşrutlarla hərəkət edən sərnişinlərlə bərabər, minə yaxın minik avtomobili sahibi, demək olar ki, hər gün bu yoldan istifadə edəcəkdir.

***Qədim Naxçıvan 5 min ildən çox şəhər mədəniyyətinə malikdir. Bu bölgədə formalaşan şəhərlər tarixin müxtəlif dövrlərində öz intibah dövrünü yaşamışdır. Naxçıvanın müasir intibah mərhələsində isə bölgədəki iri kəndlərin inkişaf edərək şəhərtipli yaşayış məntəqələri sırasına qovuşması sürətlənməkdədir. Bu baxımdan "Şəhərləşən kəndlərimiz" rubrikasında ilk olaraq Nehrəm kəndinə yolumuzu saldıq. Tarixiliyin və müasirliyin qovuşduğu Nehrəm kəndinə.***

***"Əgər torpağınızı sevmək, onun yetirdiklərini qorumaq ruhunuza hopmuşsa, onun bəhrəsini görmək də halal haqqınızdır", – deyərək kənd sakinləri ilə sağollaşıb Nehrəmin böyük qardaşı Naxçıvana doğru yola çıxıram. Qarşıda digər böyük kəndlərimizlə görüşlər var.***

**Əli CABBAROV**

## "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" uğurla həyata keçirilir

*Azərbaycan Respublikası ilə Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən və 2008-ci ildən həyata keçirilən "Naxçıvan Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" çərçivəsində işlər Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin nəzdində yaradılmış layihə idarəetmə qrupu tərəfindən uğurla davam etdirilməkdədir.*

Komitədən aldığımız məlumata görə, 2014-cü ilin ötən dövrü ərzində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində 116,13 kilometr daxili kanalizasiya şəbəkəsi, 181,6 kilometr daxili su şəbəkəsi çəkilib və 5390 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Hazırda Araz çayı kənarında bioreoktor membrantipli çirkab sutəmizləyici qurğunun tikintisi həyata keçirilir.

Naxçıvan şəhərində adıçəkilən layihə çərçivəsində 15,24 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi, 6 kilometr şəhərdaxili su şəbəkəsi çəkilib və 1440 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Hazırda çirkab sutəmizləyici qurğunun tikintisi həyata keçirilir.

Məlumatda o da bildirilir ki, muxtar respublikanın rayon mərkəzlərində və ətraf kənd yaşayış məntəqələrində də sözügedən layihə çərçivəsində bir çox işlər görülüb. Belə ki, Şərur rayonundakı Arpaçay Su Anbarında 72 metr yeni qalareya tikilib və 62 metr mövcud qalareya təmir olunub. Qalareyadan su anbarına qədər 1,48 kilometr magistral xətt çəkilib. Su anbarından Şərur şəhərinə qədər aparıcı boru xəttinin 3,97 kilometri inşa edilib, həmçinin su şəbəkəsindən müxtəlif diametrli borularla 25,87 kilometr su xətti çəkilib və 509 ədəd ev birləşməsi işi aparılıb.

Babək rayonunda da bu işlər sürətlə davam etdirilir. Bəhs olunan dövr ərzində su anbarından Babək qəsəbəsinə qədər aparıcı boru xəttinin 2,06 kilometri inşa edilib, müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 34,43 kilometri, daxili su şəbəkəsinin 41,53 kilometri çəkilib və 2567 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Şahbuz rayonunda müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 1,86 kilometr, daxili su şəbəkəsinin 16,18 kilometr xətti çəkilib və 376 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Rayonda 30 metr kaptaj tikilib, bulaqlardan yığılan su əsas xəttə birləşdirilib. Su hovuzlarında izolyasiya işləri aparılır.

Culfa rayonunda isə müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 2,14 kilometrliyində və daxili su şəbəkəsinin 4,9 kilometr xəttində işlər yekunlaşdırılıb.

Layihə çərçivəsində Ordubad rayonunda müxtəlif diametrli borularla daxili kanalizasiya şəbəkəsinin 18,14, daxili su şəbəkəsinin isə 23,33 kilometr xətti çəkilib, 498 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb.

Kəngərli rayonunda müxtəlif diametrli borularla 5,09 kilometr daxili su şəbəkəsinin, 0,86 kilometr kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılıb.

Sədərək rayonunda su anbarından Heydərabad qəsəbəsinə qədər aparıcı boru xəttindən 1,79 kilometri çəkilib, müxtəlif diametrli borularla 58,7 kilometr daxili su şəbəkəsinin, 43,46 kilometr kanalizasiya şəbəkəsinin tikintisi başa çatıb.

Bütün rayonların su hovuzlarında və sutəmizləyici qurğularında işlər davam etdirilir.

**Muxtar MƏMMƏDOV**

## Əhalinin banklara inamı, banklarda isə hesabların sayı artır

***Muxtar respublikada fəaliyyət göstərən bankların son vaxtlar yaratdıqları imic etibarlı müştəri auditoriyasının daha da genişlənməsinə səbəb olub. Belə ki, 2014-cü ilin 11 ayı ərzində yeni açılmış bank hesablarının sayı 100-ü hüquqi, 17 min 135-i fiziki şəxs olmaqla, 17 min 235-ə çatıb. Bu, ötən ilin müvafiq dövründəki göstəricidən 9485 ədəd çox olub, son beş ildə müvafiq dövrlərdəki ən yüksək göstəricidir.***

Ümumilikdə, 1 dekabr 2014-cü il tarixə bank hesablarının sayı 37 min 520 ədəd təşkil edib ki, bunlardan 34 min 292-si aktiv hesab olub. Bank hesablarının 2238-i hüquqi, 35 min 282-si fiziki şəxslər üçün açılıb. Xidmət olunan bank hesablarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 min 499 ədəd artıb. Bu artım aktiv hesablarda da müşahidə olunub və 13 min 522 ədəd təşkil edib.

Son vaxtlar əhalinin real pul gəlirlərinin, eləcə də bank sisteminə inamın artması, kreditorların və əmanətçilərin maraqlarının müdafiəsinin hüquqi əsaslarının təkmilləşdirilməsi, xüsusilə Əmanətlərin Sığortalanması Fondunun uğurlu fəaliyyəti əhalinin əmanətlərinin sürətli artımını şərtləndirən amillərdən olub. Hələ də banklar tərəfindən əhalidən cəlb edilmiş əmanətlərin həcminin ümumi kredit qoyuluşunun 7 faiz təşkil etməsinə baxmayaraq, bu göstərici ilbəil artan templə davam edir. Belə ki, muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən cəlb olunan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 dekabr 2014-cü il tarixə 1 milyon 796 min manat artaraq 6 milyon 714 min manat olub. Əhalidən cəlb edilmiş əmanətlərin həcmində son beş ildə iki dəfədən çox artım müşahidə edilib. Xarici valyuta ilə cəlb olunan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 531 min manat artaraq 1 milyon 733 min manat təşkil edib. Milli valyutada cəlb edilmiş əmanətlərin cəmi əmanətlərdəki xüsusi çəkisi isə 74,2 faiz həcmində olub və 4 milyon 981 min manata çatıb.

Qeyd edək ki, muxtar respublikada fəaliyyət göstərən banklar illik 4 faizdən 20 faizədək əmanətləri qəbul edirlər. Əmanətlərin Sığortalanması Fondunun fəaliyyət göstərməsi və muxtar respublikada fəaliyyət göstərən bütün bankların bu fondun üzvü olmaları onların müştərilər qarşısında müsbət imicinin formalaşmasına, müştəri və bankın etibarlı partnyorluğunun inkişafına təsir göstərən amillərdəndir.

Artıq banklarda yerləşdirilən və ümumi məbləği 30 min manatdan yuxarı olmayan, illik faizi 9 faizdən çox olmayan bütün əmanətlər sığortalanırlar. Bu, o deməkdir ki, vətəndaşın bankda yerləşdirdiyi əmanətin məbləği 30 min manatdan, illik faizi 9 faizdən artıq deyilsə, bankın müflis olması halında belə, vətəndaşın əmanəti özünə qaytarılacaq. Çünki həmin bankdakı əmanətlər sözügedən meyarlar daxilində Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalanıb. Bu baxımdan fond vətəndaşların banklara olan inamının artırılmasında kifayət qədər həlledici və böyük təsirə malikdir.

**Elçin ƏLİYEV**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin aparıcı mütəxəssisi*

# Naxçıvanın “tarix kitabı” tarixdən başlanır, yaxud mənbələrin onomastik informasiya yükü

## *Mənbələrin daş yaddaşı nə deyir?*

*Naxçıvanın toponimləri Naxçıvanın “tarix kitabı”, Azərbaycan dilinin söz varlığını qoruyub saxlayan bir xəzinədir. Bu xəzinə xalqımızın tarixi ilə bağlı yaranmış, milli mənəviyyatı ilə yoğurulmuş, Azərbaycançılıq, türkçülüklə möhürlənmiş, leksik-semantik və qrammatik xüsusiyyətləri ilə seçilən daş yaddaşımızdır. Min illərin yadigarı olan bu xəzinədə qədim tayfa və tayfa birləşmələrinin, nəsil və tirə başçılarının adları, arazinin relyef quruluşunu, flora və faunasını əks etdirən xüsusi adlar mühüm yer tutur. Bu adlar yaşı min illərlə ölçülən tarixdən soraq verir, müxtəlif mənbələrdə, məxəzlərdə əksini tapır, Vətən torpağının hər qarışında, dağında, daşında yaşayır.*

Mənbələrdən aydın olur ki, Naxçıvanda həyat burada ilk insanların məskunlaşdığı dövrlərdən mövcud olmuş, tarixin yaddaşı ərazinin toponimlərində qorunub saxlanılmışdır.

Mənbələrdəki hər bir xüsusi ad dilimizin tarixi fonetika, tarixi leksikologiya, dialektologiya və qrammatikasını özündə yaşadan dil materialıdır. Bu adlar yurdumuzun tarixi coğrafiyasını, ünvanını dəqiqləşdirir, torpaqlarımıza göz dikmiş mənfur erməni millətçilərinə tarixi gerçəklikləri sübut etdirir. Aydın olur ki, toponimik adlara hələ eradan əvvəllərə aid mənbələrdə rast gəlinir. Antik yunan və Roma müəllifləri Flavi (e.ə. I əsr), Ptolomey (eramızın II əsri), Plutarx (II əsr), alban tarixçisi Moisey Kalankatuklu (VII əsr) və başqalarının əsərlərində qədim şəhərlər sırasında “Naxçıvan” adına da rast gəlinir. Naxçıvan şəhərinin mövcudluğu və adı haqqında ilkin məlumat yəhudi alimi İosif Flaviyə (e.ə. I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolomeyə (eramızın II əsri) məxsusdur. K.Ptolomeyin “Coğrafiya” adlı əsərində dünyanın 7 məşhur şəhərindən birinin Naksuana olduğu yazılmış və coğrafi məkanı göstərilmişdir. Hələ eradan əvvəlki minilliklərdən başlayaraq müxtəlif mənbələrdə Araz çayının adı və coğrafiyası ilə bağlı bir-birini təkzib və ya təkrar edən mülahizələr söylənilmişdir. Tarixin atası hesab olunan Heredot (e.ə. V əsr) “Tarix” əsərində Araz çayının adını dəfələrlə çəkmiş, çayın coğrafi məkanı haqqında maraqlı məlumatlar vermişdir. Strabon (e.ə. 64-63 – eramızın 23-34-cü illəri) “Coğrafiya” adlı əsərində Qafqaz Albaniyası və Atropatenanın coğrafi mövqeyi, sərhədləri, burada məskunlaşmış tayfalar, Xəzər dənizi, Araz çayı, çay boyunca “Araz” adlı ölkənin olması haqda maraqlı məlumat vermişdir. Bizim eranın VII əsrindən başlayaraq ərəb və fars mənbələrində Naxçıvanın paleotoponimləri, şəhər və kəndləri, yolları, meyvə bağları haqqında məlumatlar əksini tapır. Ərəb və fars qaynaqlarında Naxçıvan şəhərinin adı “Nəxcuan”, “Nəşəva”, “Nəşəvi”, “Nəxcəvan” şəkillərində işlədilmiş, müxtəlif əsrlərdə yaşamış əl-Təbəri (IX əsr), əl-Bəlazuri (IX əsr), İbn Xordabeh (X əsr), İbn əl-Fəqih əl Həmədani (X əsr), əl-İstəxri (X əsr), əl-Biruni (XI əsr), əl-İdrisi (XII əsr), Yaqut Həməvi (XIII əsr), Fəzlullah Rəşidəddin (XIII əsr), Həmdullah Qəzvini (XIV əsr) və digər tədqiqatçıların əsərlərində Naxçıvanın Azərbaycan-türk ölkəsi olması, bu ölkənin tarixi, sosial-iqtisadi həyatı, təbiəti, mədəniyyəti, yolları, əhalinin məşğuliyyət sahələri, təsərrüfat həyatı və sair haqqında verdikləri dəyərli məlumatlar içərisində Naxçıvanın toponimləri ilə də bağlı qiymətli faktlar əldə etmək mümkündür.

Orta əsr coğrafiyaşünası Həmdullah Qəzvini (1280-1349) “Ürəklərin əfsanəsi” əsərində Azərbaycan haqqında tutarlı və dolğun məlumat vermişdir. Müəllif yazır ki, Azərbaycanın tərkibində 9 tümən və 27 şəhər vardır. H.Qəzvini Naxçıvan şəhərinin binalarının çoxunun bişmiş kərpicdən tikildiyini, Naxçıvan şəhərinin “Dünyanın bəzəyi” – “Nəqşi-cahan” adlandırıldığını, Naxçıvan, Əncan, Ordubad, Azad, Maku şəhərlərini əhatə edən tümən mərkəzi olduğunu, ərazidə daha çox buğda, pambıq, üzüm əkildiyini, Ələncik (Əlincə), Sürməli, Taqmar və Faqnan kimi dağılmış qalaların olduğunu, Araz çayının Azərbaycan ərazisindən axdığını yazır. Müəllif qeyd edir ki, *Ordubad bağlar diyarıdır. Burada üzüm, buğda və pambıq əkilir. Şəhər Kaban (Qafan) dağlarından gələn su ilə təmin olunur, suyun artığı Araza axır.*

XIV əsrin ikinci yarısı, XV əsrin əvvəllərində yaşamış azərbaycanlı alim Əbdürrəşid əl-Bakuvi “Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri” adlı əsərində Azərbaycan, Mərənd, Təbriz, Ərdəbil, Marağa, Urmiya, Savalan dağı, Araz çayı kimi coğrafi ərazilərin adlarını çəkir. Müəllif “Naxçıvan” adını “Nakcuvan” şəklində yazır: *“Divarları və içqalası olan Azərbaycanda gözəl şəhərdir. Şəhər düzənliyin ortasında yüksək yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı-bağatlı, meşəli, meyvəli və çörəkli bir yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır”.*

Naxçıvanın əlverişli coğrafi mövqedə yerləşməsi, Avropa ilə Şərq ölkələri arasında körpü rolunu oynaması, qədim İpək Yolunun bir qolunun Araz boyunca uzanması dünyanın müxtəlif ölkələrindən gələn səyyah, missioner və diplomatların diqqətini bu diyara cəlb etmiş, onların gündəliklərində Naxçıvanın tarixi abidələri, təbiəti, iqtisadiyyatı və mədəniyyətinə dair zəngin materiallar əksini tapmış, itib-batmış abidələr, xaraba qalmış şəhərlər və kəndlər, əhalinin yaşayış tərzi, təsərrüfat həyatı, meyvə bağları, əkinçilik mədəniyyəti haqqında tarixi məlumatlar verilmişdir. Ancaq təəssüflə qeyd edək ki, bu mənbələrin hamısını əldə etmək, digər ölkələrin arxivlərində olan sənəd və materialları araşdırıb üzə çıxarmaq imkan xaricindədir. Onu da qeyd edək ki, bu qaynaqlar, əsasən, sosial-iqtisadi və mədəni-siyasi məzmuna malik tarixi-coğrafi məlumatlardan ibarət olsa da, həmin qaynaqlar arasında onomastik məzmun kəsb edən məlumatlar da xüsusi yer tutur. Məsələn, 1253-1254-cü illərdə fransız hökmdarı IX Ludovikin tapşırığı ilə monqol xanı Mangunun yanına göndərilmiş fransız ilahiyyatçısı Vilhelm Rubuk (1215-1270) Konstantinopoldan Qara dəniz vasitəsilə səyahətə başlamış, geri qayıdarkən 1254-cü il dekabrın sonunda Naxçıvana gəlmişdir. O, “Şərq ölkələrinə səyahət” adlı əsərində Naxçıvanın (Naksua) “iri və gözəl bir şəhər” olması haqda məlumat vermişdir.

Fransız səyyahı J.B.Tavernye XVII əsrin 30-70-ci illərində dəfələrlə Şərq ölkələrinə səyahət etmiş, doqquz dəfə Azərbaycanda olmuş, 1664-cü ildə Naxçıvana gəlmişdir. J.B.Tavernye Naxçıvanda olarkən Araz çayı, Sədərək, Qarabağlar şəhəri, Qarabağlar qalası, Culfa, Əlincə qalası, Ordubad, Əylis, Bəqə şəhəri, Eldəniz kəndi, Fəkənd qalası, Əsədabad kimi qala, məscid, çay keçidləri və sair haqqında görüb eşitdiklərini qələmə almışdır. Tavernye yazır ki, *İrəvandan Təbrizə 10 günlük karvan yoludur və Naxçıvan həmin yolun tən ortasında yerləşir. Naxçıvan dünyanın ən qədim şəhərlərindən biridir. Nuh gəmisinin yan aldığı dağın 3 livliyində bu şəhər bina olubdur.*

J.B.Tavernyenin adını çəkdiyi “Eldəniz” kənd adı tədqiqat üçün maraq doğurur. Müəllifin verdiyi məlumata görə, “1606-cı il oktyabrın 7-də I Şah Abbas Naxçıvandan Eldəniz kəndində” olmuşdur. “Eldəniz” kənd adına digər mənbələrdə rast gəlinmir. Kəndin yerləşdiyi ərazi də dəqiq məlum deyil. Ancaq I Şah Abbasın Naxçıvandan Ordubada gedərkən bu kənddə olması sübut edir ki, kənd Naxçıvan şəhəri ilə Ordubad şəhəri arasında yerləşirmiş. Eldəniz kəndi Atabəylər hakimiyyəti dövründə salınmış abad kəndlərdən biri olmuş, Atabəylər dövlətinin əsasını qoymuş Şəmsəddin Eldənizin adı ilə bağlı yaranmışdır. Müəllifin hökmdarın bu kəndə getməsini xüsusi olaraq vurğulaması sübut edir ki, I Şah Abbas kəndə yolüstü yox, hansısa bir məqsədlə getmişdir.

XVII əsrdə Naxçıvanda olmuş məşhur türk səyyahı və coğrafiyaşünası Ö.Çələbi 1640-cı ildən başlayaraq ömrünün, təqribən, 50 ilini səyahətdə keçirmiş, Yaxın Şərq, Afrika, Avropa ölkələrini, Şimali Qafqazı və Zaqafqaziyanı gəzmiş, 1640-44, 1646-48, 1655-56-cı illərdə Azərbaycanda olmuş, Azərbaycanın bir çox şəhər və kəndləri, xüsusilə Naxçıvan, Ordubad, Təbriz, Sədərək, Qarabağlar, Xoy haqqında məlumat vermişdir. Ö.Çələbi “Səyahətnamə” əsərində “Nəxşivan”, “Nəqşi-cahan” adlandırdığı ölkənin inzibati idarə sistemi, sosial-iqtisadi həyatı, mədəniyyəti, kənd təsərrüfatı, 18 növdə dadlı, sulu narı, “Mələçə”, “Abbasi”, “Ordubadi” kimi armud növləri, çoxlu üzüm sortları, dənli və bostan bitkiləri haqqında danışmış, Sədərək, Əhmədbəy zaviyyəsi, Araz çayı, Qarabağlar şəhəri, Cənabi Əhməd paşa, Fərhad paşa, Gözəl Əli paşa, Çıqal oğlu, Xadim Cəfər paşa məscidləri, şəhərlərdəki mehmanxanalar, hamamlar, dükanlar haqqında maraqlı məlumatlar vermişdir. Ö.Çələbi Qarabağlar şəhərindən bəhs edərək yazır: *“Şəhər çox qədimdir. Hazırda o, Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. Bizim xidmətçilərimiz şəhərdə 40-a qədər minarə saydılar. Mehmandarın söylədiyinə görə, 10 minə qədər bağlı-bağçalı evi, 70 mehrabı var ki, onun qırxı minarəli məsciddir”.*

Naxçıvanın yer-yurd adları ilə bağlı məlumatlara alman səyyahı Adam Olearinin, Təbrizdən Naxçıvanadək Şah Abbasın qoşunu ilə hərəkət edib Culfanın alınmasının şahidi olan alman elçisi Tektanderin, məşhur fransız yazıçısı, tikinti mühəndisi, hidrotexnika üzrə alim Aleksandr Dümanın (ata), alman etnoqrafı və tarixçisi Qan Kartın əsərlərində də rast gəlinir.

Rus geodezisti, general-leytenant İ.İ.Xodzkonun çoxsaylı əsərləri digər əhəmiyyəti ilə bərabər, Naxçıvanın xüsusi adlarının öyrənilməsində də qiymətli mənbədir. O, elmi əsərlərində yüzlərlə Azərbaycan toponiminin adını çəkmiş, Naxçıvanla bağlı İlandağ, Qarababaçay, Cəyir, Naxçıvançay, Əlincəçay, Gilançay, Urumusçay, Vənəndçay, Nüyədi, Ordubadçay, Dəvəboynu, Həsənqala, Miqri (Mehri – A.B.), Şərur, Şahtaxtı, Qıvraq, Tarudağ, Gülüstan, Gərçivan, Dərəşam, Biçənək, Nəqşi-Nərgiz, Tumbul, Əsəbqat (Əshabi-Kəhf – A.B.), Damcıxana və sair kimi toponim, oronim və hidronimlər haqqında maraqlı məlumatlar verilmişdir.

***Adlarını çəkdiyimiz mənbələrdə Naxçıvanın tarixi-siyasi coğrafiyası, ictimai, iqtisadi, sosial-mədəni həyatı ilə yanaşı, ərazinin bəzi şəhər, kənd və yer-yurd adları haqqında dəyərli tarixi məlumatlar verilmiş, ancaq həmin əsərlərin tədqiqat obyekti olmadığından mənbələrdə xüsusi adlar sistemli şəkildə əksini tapmamış və ya onların linqvistik xüsusiyyətlərinə toxunulmamışdır.***

**Adil BAĞIROV**
**AMEA-nın müxbir üzvü**

***Bu, bir həqiqətdir ki, yüksək savada və zəngin pedaqoji təcrübəyə malik olan müəllimlərə sahib cəmiyyətlər daim inkişaf edir, tərəqqiyə qovuşur. Bu cəhətdən Azərbaycan xalqı xoşbəxt xalqdır. Çünki bizim ölkəmizdə belə müəllimlər kifayət qədərdir. Dövlətimiz isə həmin müəllimlərin əməyini yüksək qiymətləndirir, onları dövlətin ali təltiflərinə layiq görür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 17 dekabr tarixli sərəncamları ilə 2013-2014-cü tədris ilində keçirilmiş “Ən yaxşı ümumtəhsil məktəbi” və “Ən yaxşı müəllim” müsabiqələrində müvəffəqiyyət qazanan ümumtəhsil məktəblərinin və müəllimlərin mükafatlandırılması sözügedən təltifə bariz nümunədir. Həmin müsabiqənin qalibləri sırasında muxtar respublikada fəaliyyət göstərən məktəblərin və bir qrup müəllimin də adlarının olması bizə ikiqat sevinc bəxş etdi. Müsabiqədə fərqlənən müəllimlərlə görüşüb onları təbrik etdik, təəssüratlarını öyrəndik.***

# “Ən yaxşı müəllim” müsabiqəsinin qalibləri minnətdarlıq edirlər



***Rəxşəndə RÜSTƏMOVA – Naxçıvan Qızlar Liseyinin müəllimi:*** – “Ən yaxşı müəllim” adına layiq görülməyim təkcə mənim əməyimə deyil, məktəbimizin pedaqoji kollektivinin əməyinə verilən yüksək qiymətdir. Çalışacağam ki, bundan sonra da bilik və bacarığımı gənclərin yaxşı təhsil almalarına sərf edim. Mən fəxr edirəm ki, bir vaxtlar dərs dediyim şagirdlərin çoxu ali təhsil alıblar və bu gün müxtəlif idarə və müəssisələrdə fəaliyyətlərini davam etdirirlər. Vətənpərvər, təhsilli gənclər yetişdirmək və cəmiyyət üçün faydalı fərdlər hazırlamaq müəllimlər üçün prioritet vəzifə kimi müəyyənləşdirilib. Məktəbimizdə təhsil alan qızlara elm, biliklə yanaşı, onlara milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz də daha dərindən öyrədilir. Onu da qeyd edim ki, liseyin pedaqoji kollektivi qazanılan uğurları son həddə hesab etmir. Daha böyük nailiyyətlər əldə etmək üçün pedaqogikanın son nailiyyətlərindən istifadəyə üstünlük verilir, dünya təhsil sistemindəki yenilikləri tədris prosesində tətbiqinə səy göstərilir. Biz müəllimlər yaxşı bilirik ki, bu günün qızları gələcəyin analarıdır. Bu gün yüksək insani keyfiyyətləri özündə cəmləşdirmiş savadlı, intellektli qızlarımız, gələcək analarımız övladlarını Vətənimizin, dövlətimizin daha da qüdrətlənməsinə xidmət edəcək vətəndaş kimi tərbiyə edəcəklər.



***Ədalət ƏHMƏDOV – Culfa rayon Dizə kənd tam orta məktəbinin müəllimi:*** – “Muxtariyyət ili”ndə bu yüksək mükafata layiq görülməyim ikiqat sevincimə səbəb oldu. Artıq bir neçə gündən sonra “Muxtariyyət ili”nə yekun vuracağıq. Azərbaycan dövlətçilik tarixinin mühüm səhifəsini təşkil edən 90 il Naxçıvanın inkişafında müəyyən rol oynasa da, onun son 19 ili intibah illəri kimi səciyyələndirilir. Bu intibahdan bütün sahələr bəhrələnib, eləcə də təhsil. Hər hansısa bir regionun inkişafı, ilk növbədə, o yurdun təhsilli insanlarından asılıdır. Əgər təhsilli insanlar, mütəxəssislər varsa, bütün sahələrin inkişafına nail olmaq mümkündür. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Müasir tələblər səviyyəsində inşa olunan təhsil müəssisələri üçün binalar bu sahənin inkişafına yeni üfüqlər açır. Məktəb tikintisi təkcə Naxçıvan şəhəri və rayon mərkəzləri ilə məhdudlaşmır, həmçinin ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən, gələcəyə hesablanmış yeni məktəb binaları tikilir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılıb, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılıb, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilib. Təbii ki, yaradılan şərait müqabilində bizim pis işləməyə haqqımız yoxdur. Mənə göstərilən bu diqqət və qayğıya görə dərin minnətdarlığımı bildirirəm. Söz verirəm ki, fəaliyyət göstərdiyim təhsil ocağında əsl vətənpərvər, dövlətini, xalqını, torpağını sevən savadlı, intellektli nəslin yetişməsində savadımı, bacarığımı və var qüvvəmi əsirgəməyəcəyəm.



***Məhəddin KAZIMOV – Kəngərli rayon Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin müəllimi:*** – Azərbaycanda müxtəlif sahələri əhatə edən dövlət mükafatları təsis olunub. Fəaliyyətləri ilə seçilən, ölkəmizə və xalqımıza ləyaqətlə xidmət edən şəxslər bu mükafatlara layiq görülürlər. Bu insanlar arasında olmağım bir müəllim kimi məni dünyanın ən xoşbəxt insanı etdi. Dərs dediyim məktəbin pedaqoji kollektivi də mənim qədər sevinc hissi keçirir. Dövlətimizin qayğısının müqabilində hər birimizin məqsəd və məramı müstəqil Azərbaycanın gələcək inkişafı və çiçəklənməsi naminə daha səylə çalışmaqdan ibarət olmalıdır. Bütün bunlar ölkəmizin inkişafının davamlılığına və sabitliyin qorunmasına təminat verəcək, əməyə, Vətənə məhəbbət hissinin yüksəldilməsinə şərait yaradacaq, daha böyük uğurların qazanılmasını şərtləndirəcəkdir.



***Sədaqət CƏFƏROVA – Şərur rayon Muğancıq-Mehrab məktəbinin müəllimi:*** – Əvvəlcə onu deyim ki, muxtar respublikada 1995-2014-cü illərdə bütün sahələr kimi, təhsil sahəsi də əsl intibaha qovuşub. Son 19 ildə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 300-dən çox təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikanın ən ucqar dağ kəndində tikilən məktəb binası ilə Naxçıvan şəhərində inşa olunan təhsil ocağı arasında heç bir fərq yoxdur. Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirmək kimi şərəfli işin öhdəsindən layiqincə gələn müəllimlərin əməyi ölkəmizdə hər zaman yüksək qiymətləndirilir, onlar fəxri adlara layiq görülür, orden və medallarla təltif olunurlar. Əməyi qiymətləndirilənlər sırasında adımın olması məni qürurlandırır. Bundan sonra üzərimizə daha böyük məsuliyyət düşür. İnsan bir də özünü o vaxt xoşbəxt sanır ki, başqaları üçün xeyirxah işlər görür, Vətəni, xalqı üçün yararlı bir vətəndaş olduğunu hiss edir; bunların üzərinə onun əməyinin dövləti tərəfindən qiymətləndirilməsini də gəlsək, o müəllimin sevincinin həddi-hüdudu olmaz. Sonda onu qeyd etmək istəyirəm ki, müdriklərin fikrincə, “hər bir millətin tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır”. Ona görə də əsl müəllim bilik və bacarığını, qəlbinin hərarətini daim dövlətin və xalqın sabahı naminə sərf etməli, şagirdlərinin vətənpərvər, intellektli gənclər kimi yetişməsi üçün səylə çalışmalıdır.

**Sara ƏZİMOVA**

# “Muxtariyyət ili”nin quruculuq ərməğanları

## *Yeni mənzil – rahat həyat*











***H**əyatımızda ən önəmli rol oynayan tələbatlardan başlıcası mənzildir. Mənzil hər birimizin ilk yurd yeri, ilk ocaq yeridir. Həyata, cəmiyyətə, böyük Vətənə yol bu ocaqdan başlanır. Tarixən oğul övladları həddi-büluğa çatan hər bir valideyn onların bu problemi barədə düşünüb. Onlara ev tikmək üçün tədarük görüb. Evin təməli qoyulanda bünövrəyə qiymətli əşya atılıb ki, ruzi-bərəkəti bol olsun. Evin tikintisində bütün qohum-əqrəba əlindən gələn köməyi göstərib. Elə dövrümüzdə də bu gözəl adət yaşamaqdadır. Üstəgəl ki, bu işdə dövlətimizin həyata keçirdiyi tədbirlər, bu tədbirlərin davamlı xarakter alması günümüzün həqiqətidir.*

*Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində müasir standartlara cavab verən yeni yaşayış binalarının tikintisi, mövcud binaların yenidən qurulması, mənzillərin sahələrinin genişləndirilməsi, mənzillərdə hərtərəfli məişət şəraitinin yaradılması hər birimizi ürəkdən sevindirir, doğma yurd yerinə daha sıx tellərlə bağlayır.*

*Bu tədbirlər “Muxtariyyət ili”ndə daha geniş vüsət alıb. Bəhs olunan dövrdə bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikanın gündən-günə gözəlləşən simasına əlavə çalarlar qatmaqla əhali tərəfindən onlara göstərilən ən yüksək qayğı kimi dəyərləndirilir.*

*İdman xəbərləri*

## Basketbol birinciliyinə yekun vurulub

Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş basketbol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin birgə təşkil etdiyi birinciliyin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov son illər muxtar respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışıb, basketbolçuları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib. Sonra Təhsil Şöbəsinin əməkdaşı Ruslan Quliyev və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Rauf Hüseynov çıxış edərək yarışın qaydaları haqqında məlumat verib, iştirakçılara uğurlar arzulayıblar.

14 komandanın iştirak etdiyi birincilik olimpiya sistemi üzrə keçirilib. Gərgin mübarizədən sonra 10 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək birinciliyin qalibi adını qazanıb. Finalda məğlub olan 17 nömrəli tam orta məktəbin komandası ikinci, 14 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.



Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

## Naxçıvanda beynəlxalq reytinqli şahmat yarışı

Naxçıvan Şahmat Mərkəzində beynəlxalq reytinqli şahmat yarışına yekun vurulub. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda muxtar respublikanın şəhər və rayonlarından olan zəka sahibləri qüvvələrini sınayıblar. Yarışın keçirilməsində məqsəd şahmatçılara beynəlxalq reytinq xallarının verilməsi olub. 5 gün davam edən yarışdan sonra muxtar respublikanın beynəlxalq reytinqli şahmatçılarının sayı 57-yə çatıb.

Yarışın nəticələrinə əsasən, Sadiq Məmmədov bütün rəqiblərini üstələyərək qalib adını qazanıb. O həmçinin 1850 reytinq xalının üzərinə daha 58 reytinq xalı əlavə edilməsinə müvəffəq olub. Reytinq əmsalına görə rəqiblərindən bir qədər yüksəkdə olan Toğrul Həsənzadə isə yarışı ikinci pillədə başa vurub və 30 reytinq xalı qazanıb. O, aktivində olan 1940 reytinq xalını artıra bilib.

Üçüncü pillənin sahibi Tural Zeynalov da reytinq xalını artıranlar arasında olub: o, reytinq xalına 10 xal əlavə edərək ümumi xalını 1814-ə çatdırıb.

*19-23 dekabr 2014-cü il tarixlərdə Türkiyənin Samsun şəhərində beynəlxalq səviyyəli şahmat yarışı keçirilib.*

## Həmyerlimiz beynəlxalq qrossmeysteri geridə qoydu

İkinci Açıq Atakum Turnirində muxtar respublikanı 6 şahmatçımız təmsil edib. 5 ölkəni təmsil edən zəka sahiblərinin mübarizəsində şahmatçımız Toğrul Həsənzadə daha yaxşı nəticə göstərərək mükafatçılar sırasına adını yazdırıb. O keçirdiyi oyunlarda mükəmməl nəticə göstərməklə dördüncü olub. Həmçinin Toğrulun qazandığı bu uğur onun reytinq xalına da təsir göstərib. Belə ki, uğurlu çıxışı nəticəsində həmyerlimiz aktivinə daha 36 reytinq xalı yazdırıb. Şahmatçımız bu nəticə ilə həm də turnirdə çıxış edən bir beynəlxalq qrossmeysteri geridə qoymağı bacarıb.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi

*muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydası Ali Məclis Sədrinin 18 noyabr 2010-cu il tarixli Sərəncamı ilə müəyyən olunur.

Muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqəyə ali məktəbləri “gömrük işi”, “maliyyə”, “iqtisadiyyat”, “hüquq”, “beynəlxalq münasibətlər” və “xarici dil (rus və ingilis)” ixtisasları üzrə bitirən şəxslər buraxılır. Ali məktəbləri tibbi ixtisaslar üzrə bitirən şəxslər (kişi) isə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin tibb xidmətində mövcud vakant yer üzrə (1 yer) müsabiqədə iştirak edə bilərlər. Bir qayda olaraq namizədlərin yaşı 30-u keçməməlidir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər ***www.dgk.nmr.az*** internet saytına daxil olmaqla “Gömrük orqanlarında xidmətə qəbul” bölməsində muxtar respublikanın gömrük orqanlarına işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə qeydiyyat bir ay müddətində – dekabr ayının 25-dən yanvar ayının 25-dək davam edəcək.

Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyəti hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən, fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, gömrük, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Müsabiqə hər bir namizədin gömrük işi üzrə bilik səviyyəsinin, ümumi dünyagörüşünün, gömrük orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Xarici dil bilən (əsasən rus və ingilis) və kompüterdə işləmək bacarığı yüksək olan şəxslərə müsabiqənin müsahibə mərhələsində üstünlük verilir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1073